| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 19.04.2021 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 101 |
| **ADI** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının” təsdiq olunması haqqında” 1994-cü il 15 yanvar tarixli 10 nömrəli, “Azərbaycan Respublikası hərbi qulluqçularının və hərbi vəzifəlilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında” 1994-cü il 17 fevral tarixli 67 nömrəli, “Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli və “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 21.04.2021, Nəşr Nömrəsi: 82), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30.04.2021, Nəşr nömrəsi: 4, Maddə nömrəsi: 404) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 21.04.2021 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 080.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14202104190101 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 23.04.2021 |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında" 1994-cü il 15 yanvar tarixli 10 nömrəli, "Azərbaycan Respublikası hərbi qulluqçularının və hərbi vəzifəlilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 1994-cü il 17 fevral tarixli 67 nömrəli, "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 3.2.8-ci yarımbəndi ləğv edilsin.

2. "Azərbaycan Respublikası hərbi qulluqçularının və hərbi vəzifəlilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 fevral tarixli 67 nömrəli Qərarının 4-cü hissəsinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aylıq müavinət ödənilir.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 10, maddə 1225; 2016, 7, maddə 1343, 11, maddə 1977; 2017, 12 (II kitab), maddə 2552; 2018, 2, maddə 354, 12 (II kitab), maddə 2730; 2019, 5, maddə 983, 7, maddələr 1318, 1330; 2020, 5, maddə 633, 10, maddə 1269, 11, maddə 1411; 2021-ci il 5 mart tarixli 62 nömrəli, 16 mart tarixli 68 və 70 nömrəli qərarları) ilə təsdiq edilmiş "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.2-ci bənddə "Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərin (şəhid olanların, müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl AES qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl AES qəzası nəticələrinin aradan qaldırılmasında iştirak edən şəxslərin dispanser qeydiyyatında olan 16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək)" sözləri "müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının" sözləri ilə əvəz edilsin;

3.2. 4.4-cü bənd ləğv edilsin;

3.3. həmin Qaydaların 7 nömrəli əlavəsi - "Müavinət, təqaüd və kompensasiyanın təyin edilməsi üçün tələb olunan sənədlərin siyahısı"nın 2.8-ci və 2.11-ci bəndləri ləğv edilsin.

4. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 10, maddə 2155; 2019, 3, maddələr 528, 534, 544, 563, 566, 568, 4, maddə 753, 5, maddələr 935, 945, 971, 7, maddə 1325, 8, maddə 1475, 10, maddə 1677, 11, maddə 1878, 12, maddələr 2091, 2095; 2020, 3, maddə 344, 4, maddə 479, 5, maddə 643, 6, maddə 784, 8, maddə 1134, 9, maddə 1222, 10, maddə 1273, 11, maddələr 1403, 1408, 12 (V kitab), maddələr 1589, 1597; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 fevral tarixli 38 nömrəli, 5 mart tarixli 59 nömrəli, 16 mart tarixli 69 nömrəli, 19 mart tarixli 74 nömrəli və 31 mart tarixli 81 və 83 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı"nın 272240-cı maddəsində "xidmətdə olan ailələrin" sözləri "xidmət hərbi qulluqçularının" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə" üzrə:

4.2.1. "272000. "Sosial yardım" köməkçi bölməsinin birinci cümləsində "hərbi xidmətdə olanların" sözləri "həqiqi hərbi xidmət hərbi qulluqçularının" sözləri ilə əvəz edilsin;

4.2.2. "272200. "Aztəminatlı ailələrə verilən uşaq müavinətləri" paraqrafının ikinci cümləsində "xidmətdə olan ailələrin" sözləri "xidmət hərbi qulluqçularının" sözləri ilə əvəz edilsin;

4.2.3. "272240. "Müddətli həqiqi hərbi xidmətdə olan ailələrin uşaqlarına müavinət" maddəsində "xidmətdə olan ailələrin" (birinci halda) sözləri "xidmət hərbi qulluqçularının" sözləri ilə və "hərbi xidmətdə olan ailələrin" sözləri "həqiqi hərbi xidmət hərbi qulluqçularının" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 19 aprel 2021-ci il
101